

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 106 (23.268)

11 iyun 2019-cu il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonyerın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı "Tarixi şəhərlərdə kütləvi turizm" Beynəlxalq Memarlıq Forumunun Bakıda keçirilməsindən məmnunluğunu ifadə edərək, bu tədbirin beynəlxalq əməkdaşlıq baxımından önəmini vurğulayıb. Bakının qədim tarixi ənənələrə malik olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bununla bərabər paytaxtımızın sürətlə inkişaf etdiyini və müasir infrastrukturun yaradıldığını qeyd edib. Dövlətimizin başçısı hazırda ölkəmizin xarici turistlər üçün cəlbedici məkana çevrildiyini, qonaqların sayının durmadan artdığını bildirib.

Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonyer Bakıya gələn hər bir qonaqda buradakı inkişaf proseslərinin, tarixi və müasir tikililərin dərin təəssürat hissi doğurduğunu qeyd edib. O, Bakının beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsinin və infrastruktura qoyulan investisiyaların paytaxtımızın inkişafına böyük töhfə verdiyini vurğulayıb.

Prezident İlham Əliyev Bakıda həyata keçirilən inkişaf prosesləri ilə yanaşı, tarixi irsin qorunması işinə də böyük diqqət verildiyini qeyd edib. Eyni zamanda dövlətimizin başçısı Azərbaycanda əhalinin sayının artması ilə əlaqədar müvafiq infrastruktur layihələrinin də həyata keçirilməsinə böyük önəm verildiyini bildirib.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyənin Milli Müdafiə naziri ilə görüşüb





Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimlərində iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.

İyunun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar ilə görüşmüşdür.

Ali Məclisin Sədri Naxçıvana səfərlə bağlı qəbul etdiyi qərara görə Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akara hörmət və ehtiramını bildirmiş, bu tarixi səfəri muxtar respublikanın həyatında mühüm hadisə kimi dəyərləndirərək demişdir: Azərbaycan-Türkiyə əlaqələrinin əsası xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərliyi dövründə qoyulmuşdur. 1993-cü ildən isə münasibətlərimiz ***bir millətin, iki dövləti*** səviyyəsinə yüksəlmiş, ötən dövrdə ölkə Prezidentlərinin iradəsinə uyğun olaraq strateji tərəfdaşlığımız daha da möhkəmlənmişdir.

Ali Məclisin Sədri demişdir: Ölkələrimiz arasındakı əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm yeri vardır. Xüsusilə muxtar respublika ilə qardaş ölkə arasındakı hərbi əməkdaşlıq məmnunluq doğurur. 1997-ci ildən bu günə qədər Naxçıvan Muxtar Respublikasında 600-ə yaxın Türkiyə hərbçisi xidmət keçib. Eyni zamanda Heydər Əliyev adına Hərbi Liseyi bitirən 80-ə yaxın kursant Türkiyənin ali hərbi məktəblərində təhsillərini davam etdirib. Türkiyə Silahlı Qüvvələri Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlərdə dəstəyini əsirgəməmiş, muxtar respublikadakı ordu, birləşmə və hissələrin ərzaq, geyim, əşya, texnika, tibbi avadanlıqlar və dərman vasitələri ilə təminatında təmənnasız köməklik göstərmişdir.

Ali Məclisin Sədri göstərilən dəstəyə görə Türkiyə dövlətinə və Türkiyənin Milli Müdafiə nazirinin şəxsində Türkiyə Silahlı Qüvvələrinə minnətdarlıq etmişdir.

Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Naxçıvana səfərini və göstərilən qonaqpərvərliyi yüksək dəyərləndirərək demişdir: Naxçıvan qədim tarixi və müasir inkişafı ilə tamamilə fərqli bir məkandır. Burada olmaqdan böyük məmnunluq duyur və özümüzü doğma vətənimizdəki kimi hiss edirik. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də dediyi kimi, Naxçıvanda ***"Bir millət, iki dövlət"*** olduğumuzun bir daha şahidi olduq.

Hulusi Akar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Ali Məclisin Sədrinə çatdırmış, Naxçıvanın inkişafının qardaş ölkədə məmnunluqla qarşılandığını vurğulamışdır.

Böyük öndər Mustafa Kamal Atatürkün ***"Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir"*** fikirlərini xatırladan Hulusi Akar Moskva və Qars müqavilələrinə toxunmuş, Türkiyənin daim qardaş ölkə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirmiş, ikitərəfli əlaqələrdən və qarşılıqlı etimaddan danışmışdır. Qeyd olunmuşdur ki, Türkiyə ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında ordu quruculuğu sahəsində əlaqələr hər iki tərəfin səyləri ilə inkişaf etdirilir.

Ali Məclisin Sədri Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlıq etmiş, onun da salamlarını Türkiyə Respublikasının Prezidentinə çatdırmağı xahiş etmişdir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov, ölkəmizin Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahim, Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ərkan Özoral və Azərbaycandakı hərbi attaşesi İsmail Hakkı Köseali görüşdə iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Türkiyənin Milli Müdafiə nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvanda səfərdədir





İyunun 10-da Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti ilk olaraq ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edərək önünə əklil qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Məlumat verilib ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncamla Naxçıvan şəhərində yaradılıb, 1999-cu il mayın 10-da fəaliyyətə başlayıb. Ulu öndər Heydər Əliyev 1999-cu il oktyabrın 13-də muxtar respublikaya səfəri zamanı muzeyə gələrək bu mədəniyyət müəssisəsinin ekspozisiyası ilə tanış olub. Muzeydə ulu öndərin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən eksponatlar qorunub saxlanılır.

Nümayəndə heyəti Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün Naxçıvan şəhərindəki büstü önünə əklil qoyduqdan sonra Şəhidlər xiyabanını, türk şəhidlərinin şərəfinə ucaldılmış abidəni və "Ana abidəsi"ni ziyarət ediblər.

Sonra Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarın Əlahiddə Ümumqoşun Ordunun Qərargah binasının qarşısında rəsmi qarşılanma mərasimi olub. Mərasimdə Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov iştirak edib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib. Türkiyə Respublikasının Milli Müdafiə naziri qərargah binasında "Xatirə kitabı"nı imzalayıb.

Türkiyə və Azərbaycan respublikalarının Müdafiə nazirlərinin geniş tərkibdə görüşündən sonra qonaqlar Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsindəki Təlim-Tədris Mərkəzi ilə tanış olub, burada müxtəlif virtual atış təlimlərini izləyiblər. "N" hərbi hissənin əsgər yeməkxanası ilə tanışlıqdan sonra qonaqlar Heydər Əliyev Liseyini ziyarət ediblər. Burada nümayəndə heyətinə liseyin fəaliyyəti, tədrisin təşkili, ordumuzun kadr potensialının təmin olunmasında məktəbin rolu haqqında ətraflı məlumatlar verilib.

Qeyd edək ki, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri davam edir.

✍ **Səbuhi HƏSƏNOV**

*İcmal*

## Beynəlxalq yarışların keçirildiyi məkana çevrilən Naxçıvan bütün sahələrdə uğurlu nəticələr əldə edir

### *Muxtar respublikada insan amili, innovasiyayönümlü inkişaf daim ön plandadır*

*Müasir dövrdə hər hansı bir ölkənin və ya məkanın inkişafı burada intellektual potensialın formalaşması ilə birbaşa bağlıdır. Cəmiyyətin tərəqqisinin hərəkətverici qüvvəsi olan təhsil isə intellektual potensialı formalaşdırır, hüquqi cəmiyyətin qurulmasında əvəzsiz rol oynayır, vətəndaşı cəmiyyətdə ən məhsuldar təfəkkürlü qüvvəyə çevirir, milli və mənəvi dəyərləri qoruyur və tənzimləyir, insan kapitalını yaradır. Müxtəlif dövrlərdə bir çox alimlərin, siyasətçilərin, yazıçıların böyük rəğbət bəslədikləri şahmat da intellektual bacarıqların inkişaf etdirilməsində mühüm əhəmiyyət kəsb edir.*

Naxçıvan Muxtar Respublikasında idmanın digər sahələri kimi, şahmatın inkişafına da böyük diqqət göstərilir. Hər il burada keçirilən ənənəvi beynəlxalq şahmat festivallarında naxçıvanlı şahmatçıların dünya və Avropa çempionları, beynəlxalq reytinqli şahmatçılarla qarşılaşması isə onlara böyük təcrübə qazandırır. Bu həm də qlobal idman arenasında özünəməxsus yer tutan, beynəlxalq yarışların keçirildiyi məkana çevrilən Naxçıvanın tanıdılması baxımından böyük əhəmiyyətə malikdir.

Mayın 1-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "Naxçıvan – 2019" Beynəlxalq Şahmat Festivalının açılışı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov, Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov, Azərbaycan Şahmat Federasiyasının prezidenti Elman Rüstəmov və Türkiyə Respublikası Şahmat Federasiyasının prezidenti, Beynəlxalq Şahmat Federasiyasının vitse-prezidenti Gülkız Tülay açılış tədbirində iştirak ediblər.

Ali Məclisin Sədri yarışların əsl idman mübarizəsi şəraitində keçəcəyinə və şahmatçıların ölkələrini layiqincə təmsil edəcəklərinə əminliklə "Naxçıvan – 2019" Beynəlxalq Şahmat Festivalını açıq elan edib, idmançıların hər birinə qələbə arzulayıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Şahmat Federasiyası ilə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası arasında əlaqələrin gücləndirilməsi perspektivli şahmatçıların üzə çıxarılmasına öz töhfəsini verir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbovun Azərbaycan Respublikası Şahmat Federasiyasının vitse-prezidenti vəzifəsinə təyin edilməsi Naxçıvanda şahmatın yeni mərhələdə inkişafına yol açacaqdır.

Muxtar respublikada müasir idman infrastrukturu yaradılır, mövcud idman obyekt və qurğularından səmərəli istifadə diqqətdə saxlanılır. Görülən işlərin davamı olaraq İlham Əliyev adına Olimpiya İdman Kompleksi yenidən qurulub.

Mayın 2-də Ali Məclisin Sədri Olimpiya İdman Kompleksində görülən işlərlə tanış olub, kompleksin imkanlarından səmərəli istifadə edilməsi və yaradılan şəraitin qorunub saxlanılması barədə tapşırıqlar verib.

Bu il yaradılmasının 15 illiyini qeyd edən Kəngərli rayonu ötən dövrdə böyük inkişaf yolu keçib, bütün sahələrdə, o cümlədən kənd təsərrüfatında uğurlu nəticələr əldə edilib. Rayonda əkinəyararlı torpaq sahələrinin əkin dövriyyəsinə qatılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib, Böyükdüz və Xok kəndlərində qapalı suvarma şəbəkəsi qurulub. Mayın 7-də isə Yurdçu kəndində qapalı suvarma şəbəkəsi istifadəyə verilib.

Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak edib, qapalı suvarma şəbəkəsini işə salıb.

Muxtar respublikada əhalinin sağlamlığının qorunması, tibbi xidmətin səviyyəsinin yüksəldilməsi və bu sahənin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Görülən işlərin davamı olaraq yeni angioqrafiya aparatı alınaraq Naxçıvan Diaqnostika Müalicə Mərkəzində quraşdırılıb. Mayın 8-də mərkəzdə angioqrafiya aparatının təqdimatı olub.

Ali Məclisin Sədri tədbirdə iştirak edib, yeni alınmış angioqrafiya aparatına baxıb, əhalinin sağlamlığının daim diqqətdə saxlanılması barədə tapşırıqlar verib.

Ötən ay ölkəmizdə, o cümlədən muxtar respublikamızda faşizm üzərində tarixi qələbənin növbəti ildönümü qeyd olunub. Muxtar respublikamızın əhalisi də alman faşizmi üzərində qələbənin qazanılmasında böyük qəhrəmanlıqlar göstərib. Ön cəbhəyə yola salınan 30 min igid oğul və qızımızdan 15 mini müharibədə həlak olub. 3 həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülüb, 1 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə, 600 nəfər isə müxtəlif orden və medallarla təltif edilib.

Mayın 9-da Naxçıvan şəhərindəki Xatirə kompleksində faşizm üzərində qələbənin 74-cü ildönümü münasibətilə tədbir keçirilib.

Ali Məclisin Sədri İkinci Dünya müharibəsi veteranları ilə görüşüb, onları faşizm üzərində qələbənin ildönümü münasibətilə təbrik edib. Sonra Ali Məclisin Sədri abidənin önünə gül dəstəsi qoyub, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsini ehtiramla yad edib.

Həmin gün Naxçıvan şəhərində 2 nəfər 1941-1945-ci illər müharibəsi iştirakçısına, 2 Azərbaycan Vətən Müharibəsi veteranına və 3 hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlığını itirmiş şəxsə "NAZ-Lifan 320" markalı minik avtomobili təqdim edilib.

Bugünkü müstəqil Azərbaycan, sürətlə inkişaf edən, çiçəklənən Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin şah əsəridir. Ümummilli lider bütün həyatı boyunca Vətəninə, xalqına bağlılıq nümunəsi göstərib, ölkəmizin, o cümlədən doğulub boya-başa çatdığı Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmini üçün əlindən gələni əsirgəməyib. Ona görə də bütün Azərbaycan xalqı kimi, qədirbilən naxçıvanlılar da əvəzolunmaz liderin ölkəmizin inkişafındakı xidmətlərini heç vaxt unutmurlar.

Mayın 10-da Ali Məclisin Sədri müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, ulu öndərin xatirəsini dərin ehtiramla yad edib.

Muxtar respublikanın davamlı sosial-iqtisadi inkişafı onun bütün bölgələri ilə yanaşı, Ordubad rayonunu da yeni inkişaf mərhələsinə çıxarıb. Bu il də rayonda geniş quruculuq işləri aparılır, yeni inzibati binalar və sosial obyektlər tikilərək istifadəyə verilir. Mayın 14-də Ordubad Rayon İcra Hakimiyyətinin inzibati binası və Ordubad şəhərində dövlət qurumları üçün yeni bina istifadəyə verilib.

Bununla əlaqədar keçirilən tədbirlərdə iştirak edən Ali Məclisin Sədri dövlət orqanlarının əməkdaşlarını və ictimaiyyət nümayəndələrini təbrik edib, qurulanlardan səmərəli istifadə olunacağına əminliyini bildirib.

Bu gün muxtar respublikada qurulan müasir yollar iqtisadiyyatın şaxələndirilməsinə, yaşayış məntəqələrinin və turizmin inkişafına töhfə verir. Ölkə Prezidentinin müvafiq sərəncamına uyğun olaraq hazırda Culfa-Ordubad magistral avtomobil yolu da yenidən qurulur.

Mayın 14-də Ali Məclisin Sədri avtomobil yolunda görülən işlərlə maraqlanıb, keyfiyyətin əsas götürülməsi, çay yataqlarında selqırıcı bəndlərin tikilməsi, eləcə də kənd yollarının təmirinə diqqət yetirilməsi barədə tapşırıqlar verib.

Muxtar respublikada Ramazan ayı, orucluq mərasimləri mənəvi dəyərlərimizə uyğun keçirilir. Bu müqəddəs ayın zənginlikləri yaşadılır, insanlar saf dini ideyalar ətrafında həmrəy olurlar. Mayın 21-də Naxçıvan şəhərində iftar süfrəsi açılıb.

Ali Məclisin Sədri əziz gündə xeyirxah niyyətlərlə həmrəy olduğunu bildirib, bütün dua və diləklərin qəbul olunmasını arzulayıb.

Bu gün ümummilli liderimiz Heydər Əliyevin təməlini qoyduğu dövlətçilik ənənələri uğurla davam etdirilir. Bunun nəticəsində sabitlik, inkişaf və tərəqqi davamlı xarakter alıb. Müxtəlif sahələrdə çalışan vətənpərvər insanlar isə öz əməkləri ilə dövlətçiliyimizin möhkəmlənməsinə töhfə verirlər. Onların əməyi daim yüksək qiymətləndirilir. Dövlət və xalq qarşısında xidməti olanlar o yerdə təltif olunurlar ki, həmin ölkədə dövlətçilik ənənələri, sabitlik və inkişaf olsun.

Mayın 21-də Azərbaycan Respublikası medallarının, Naxçıvan Muxtar Respublikasının fəxri adının və Azərbaycan Respublikası Prezidentinin mükafatının təqdimat mərasimi keçirilib.

Naxçıvan Muxtar Respublikasının həyatında Duzdağ Fizioterapiya Mərkəzinin xüsusi rolu vardır. Ötən 40 ildə mərkəz uğurla fəaliyyət göstərib, kollektiv formalaşıb. Sovetlər Birliyi dövründə şəraitin olmaması həm müalicə alan xəstələr, həm də kollektiv üçün çətinliklər yaradırdı. Lakin ötən illərdə Duzdağ Fizioterapiya Mərkəzi yenidən qurularaq müasir səhiyyə müəssisəsinə çevrilib. 50 çarpayı ilə fəaliyyətə başlayan mərkəzdə hazırda 500-ə yaxın xəstə eyni vaxtda müalicə alır. Hər il 4 minə yaxın insan mərkəzə müraciət edir. Vaxtilə muxtar respublikanın Səhiyyə Nazirliyinin strukturuna daxil olan mərkəz bu gün publik hüquqi şəxs kimi fəaliyyət göstərir. Duzdağ Fizioterapiya Mərkəzi bu gün muxtar respublikanın brendinə çevrilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2019-cu il mayın 16-da "Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb, Tədbirlər Planı təsdiq edilib. Mayın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyi münasibətilə təltiflər təqdim olunub.

Mayın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Hindistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bavitlunq Vanlalvavna ilə görüşüb.

*Qlobal, planetar xarakterli amillərin, demək olar ki, bütün sahələrdə gedən proseslərə nüfuz etdiyi bir dövrdə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlər qədim diyarın gələcək inkişafı üçün möhkəm zəmin yaradır. Bu gün görülən hər bir işin uzunmüddətli strateji inkişafın tərkib hissəsi olması, elmi əsaslara söykənməsi yüksəlişin davamlı xarakter almasına yol açır. Bu da qürurverici haldır ki, Naxçıvanda bütün işlər Vətənə, xalqa, dövlətə, dövlətçiliyə xidmət meyarları çərçivəsində el birliyi ilə görülür. On ikinci əsrin görkəmli siyasətçisi Nizamül-mülkün dediyi kimi: "Xalqın iradəsi ilə rəhbərin dühası birləşdikdə ölkə möhkəmlənər, gündən-günə inkişaf edər". Qədim və müasir Naxçıvanın inkişafında bu amil xüsusi rol oynayır.*

**Rauf KƏNGƏRLİ**

## "Cavidşünaslıq" 10 cildlik kitabın təqdimatı olub





*Tədbir iştirakçıları əvvəlcə 1996-cı ildə ulu öndər Heydər Əliyevin himayəsi ilə Hüseyn Cavidin məzarı üzərində əzəmətlə ucaldılan məqbərəsi önünə gələrək gül dəstələri qoyub, Hüseyn Cavidin ev-muzeyini ziyarət ediblər.*

AMEA Naxçıvan Bölməsində böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin həyat və yaradıcılığından bəhs edən, ideya müəllifi AMEA-nın prezidenti, akademik Akif Əlizadə, elmi məsləhətçisi AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, tərtibçisi AMEA Hüseyn Cavidin Ev-Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlı, layihə rəhbəri AMEA Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli olan "Cavidşünaslıq" 10 cildlik kitabın təqdimatı olub.

Təqdimat mərasimini AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirib ki, görkəmli şair-dramaturq Hüseyn Cavid Şərqin zəngin fəlsəfi-poetik irsi zəminində yüksələrək və dünya romantizm ənənələrindən uğurla bəhrələnərək ədəbi-bədii fikir salnaməmizə parlaq səhifələr yazmışdır.

Vurğulanıb ki, ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə vaxtilə repressiya qurbanı olan Hüseyn Cavidin cənazəsi 1982-ci ildə Uzaq Sibirdən Bakıya, noyabrın 2-də isə Naxçıvana gətirilib. 1992-ci il oktyabrın 23-də Naxçıvanda Hüseyn Cavidin 110 illik yubileyi təntənəli şəkildə qeyd edilib, Naxçıvanda Ali Məclisin Sədri vəzifəsində işləyən ümummilli lider yubiley tədbirində Hüseyn Cavid haqqında dərin məzmunlu çıxış edib. Bakıda Hüseyn Cavidin abidəsi ucaldılıb, ədibin 125, 130 və 135 illik yubileyləri qədim diyarımızda da yüksək səviyyədə təşkil olunub.

Bölmə sədri qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 aprel tarixli Sərəncamı ilə Azərbaycan mədəniyyətinin dəyərli simalarından biri, Hüseyn Cavid irsinin davamçısı Ərtoğrol Cavidin 100 illik yubileyinin qeyd olunması, belə bir əlamətdar ildə Hüseyn Cavidin həyat və yaradıcılığından bəhs edən dəyərli toplunun təqdimatının ilk olaraq onun doğma yurdunda keçirilməsi böyük tarixi hadisədir.

Tədbirdə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək bildirib ki, 1937-ci ildə "burjua-millətçi" baxışlarına, turançılıq görüşlərinə malik olan, sovet cəmiyyətinə laqeyd münasibət bəsləyən sənət adamı kimi həbs olunan görkəmli dramaturq-şair 1956-cı ildə siyasi bəraət alıb. Lakin Hüseyn Cavidin həyatı və çoxcəhətli yaradıcılığı ulu öndər Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründən başlayaraq son yarıməsrlik müddətdə geniş və sistemli şəkildə tədqiq edilib. Bir sıra alimlər görkəmli ədibin poeziya və dramaturgiyası, ədəbi-nəzəri görüşlərinə dair sanballı elmi-tədqiqat əsərləri yazaraq nəşr etdiriblər.

Akademik İsa Həbibbəyli bildirib ki, Azərbaycan cavidşünaslığın keçdiyi birəsrlik böyük və keşməkeşli yol çoxcildlik külliyyatı yaratmağa imkan verir. Ümumilikdə, 30 cildlik nəzərdə tutulan toplunun bu gün təqdimatı keçirilən ilk 10 cildliyi gələcək tədqiqatçılar üçün etibarlı, əsaslı məxəzdir.

AMEA Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli çıxışında qeyd edib ki, gərgin zəhmətin məhsulu sayılan yeni nəşr böyük romantik şair və filosof haqqında möhtəşəm bir dövrün tarixini geniş şəkildə əks etdirir.

AMEA Hüseyn Cavidin Ev-Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlı çıxışında bildirib ki, "Cavidşünaslıq" 10 cildlik kitabda böyük şair Hüseyn Cavidin zəngin irsi haqqında çoxsaylı məqalə və resenziyalarla yanaşı, bütün məlumatlar öz əksini tapıb. Toplunun növbəti cildləri üzərində də işlərin davam etdirildiyini vurğulayan Gülbəniz



Babaxanlı qeyd edib ki, özündə əks etdirdiyi zəngin elmi informasiya baxımından çoxcildli nəşr cavidşünaslığın inkişafında tədqiqatçılar üçün dəyərli bir mənbədir.

Digər çıxışlardan sonra AMEA Naxçıvan Bölməsinə və muxtar respublikada fəaliyyət göstərən ali təhsil ocaqlarına "Cavidşünaslıq" 10 cildlik, Ərtoğrol Cavidin seçilmiş əsərlərindən ibarət 13 cildlik, Azərbaycan ədəbiyyat tarixi kitabları, eləcə də Ərtoğrol Cavidin musiqi əsərlərindən ibarət disklər hədiyyə olunub.

**Nail ƏSGƏROV**

*Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonu müstəqil Azərbaycanın həyata vəsiqə qazanmış və sürətlə inkişaf edən bölgələrindən biridir.*



*İnkişaf edən bölgələrimiz*

## Zəngin tarix, dayanıqlı inkişaf, 15 ilə sığmayan tərəqqi

15 il bundan əvvəl – 2004-cü il martın 19-da yaradılan Kəngərli rayonunu təşkil etməkdə məqsəd idarəçilikdə təkmilləşmənin, koordinasiyanın mərkəzləşdirilməsi xarakteri daşısa da, bu tarixi hadisə həm də Naxçıvanın dövlət idarəçiliyi tarixində böyük bir nəslin – Kəngərlilərin haqqını tarix qarşısında tanımaq və gələcək nəsillərə tanıtmaq kimi uzaqgörən müdrik siyasətin təzahürü idi.

Kəngərli rayonunun ərazisi qədim tarixə malikdir. Buradakı yaşayış məntəqələri tarixən Naxçıvanın qədim oğuz-türk yurdu olması faktını sübut edən yurd yerləridir. Müstəqilliyimiz bu tarixi yurd yerlərimizin dərindən öyrənilməsinə, buradakı milli mədəniyyət nümunələrimizi qorumağa və layiqincə yaşatmağa imkan vermişdir. Digər tərəfdən, ötən 15 il tarixi mövcudluğu çox-çox qədimlərə gedib çıxan bu yaşayış məntəqələrinin sürətli inkişafını şərtləndirərək, ümumilikdə, Kəngərli rayonunun müasirliyini təmin etmişdir.



15 il tarix üçün çox qısa dövrdür. Adətən, belə zaman kəsiyi yeni yaradılan rayonun formalaşması üçün xarakterikdir. Lakin ötən dövr onu sübut etdi ki, Vətənə sevgi, dövlətçiliyə sədaqət olan yerdə ən böyük ideyaları da həyata keçirmək mümkündür. Necə ki vaxtilə boş, susuz, şoranlıq bir çöllük ərazidə lazımi infrastruktura malik müasir rayon mərkəzinin salınması çoxları üçün inandırıcı görünmürdü. Cəmi 15 illik yol qət etmiş Kəngərli rayonu isə əsl rəhbər qətiyyətinin nümunəsi, günü-gündən inkişaf edən Naxçıvanın müasir tərəqqisinin göstəricisidir.

Ötən dövrdə rayonda nə işlər görülməyib ki? Rayonun yaradılması haqqında qəbul edilən qanuna əsasən əvvəlcə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Böyükdüz, Çalxanqala, Xıncab, Şərur rayonunun isə Qarabağlar, Xok, Qıvraq, Şahtaxtı, Qabıllı, Yurdçu və indiki Yeni Kərki kənd inzibati ərazi dairələrini əhatə edən ərazi vahidləri yeni yaradılmış rayona daxil edildi. Qanunun digər bəndinə görə isə Qıvraq kəndinə qəsəbə statusu verilərək rayon mərkəzinə çevrildi. Yeni yaradılmış rayonda idarəçiliyin düzgün, eyni zamanda dövrün tələblərinə uyğun təşkil olunması məqsədilə əvvəlcə rayon mərkəzi üçün seçilmiş Qıvraq qəsəbəsində dövlət qurumları üçün lazımi iş şəraitinin yaradılmasına başlanıldı. Bu, zahirən çox asan görünsə də, adi bir kəndin rayon mərkəzinə çevrilməsinədək gedən böyük bir prosesin başlanğıcı idi. Buna baxmayaraq, işə kompleks yanaşma, zəhmətsevərlik qısa müddətdə Naxçıvan-Sədərək magistral avtomobil yolunun Qıvraq qəsəbəsi ərazisindən keçən hissəsinin sağ tərəfində Kəngərli Rayon İcra Hakimiyyəti, eləcə də digər idarə və təşkilatlar üçün yeni inzibati binaların inşa edilməsinə, əraziyə müasir kommunikasiya xətlərinin çəkilməsinə, yeni yaşıllıq zolaqlarının salınmasına, bir sözlə, zəruri infrastrukturun salınmasına imkan verdi. 2006-cı ilin iyul ayında Kəngərli Rayon İcra Hakimiyyətinin inzibati binasının açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Bu rayonun yaradılması ilə bölgədə bir çox məsələlər həll olunmuşdur. Artıq rayonun öz büdcəsi var, yeni yaradılmış idarələrdə mindən çox iş yeri açılmışdır. Beləliklə, bu rayonda yaşayan əksər ailələrin heç olmasa bir üzvü işlə təmin edilmişdir. Onların işlə təmin edilməsi ailədə də sabitliyin yaranması deməkdir. Yeni rayonun yaradılması bu bölgənin iqtisadiyyatına, gələcəkdə onun daha da möhkəmlənməsinə, ailələrin məskunlaşmasına kömək edəcəkdir. Tarixi bir adı özündə yaşadan Kəngərli rayonu qısa bir müddət ərzində muxtar respublikanın digər rayonlarının səviyyəsinə çatacaqdır".***

Bir qəsəbə və 10 kəndi özündə birləşdirən rayon mərkəzində bir-birindən gözəl inzibati binalar, mədəniyyət və istirahət parkı, mədəniyyət evi, ümummilli lider Heydər Əliyevin abidəsi, rahat yollar indi bu əraziyə məxsusi gözəllik və möhtəşəmlik bəxş edir. Əsaslı və kompleks şəkildə aparılan tikinti-quruculuq tədbirlərinin nəticəsidir ki, rayon mərkəzi sayılan Qıvraq qəsəbəsi ötən dövrdə öz simasını tamamilə dəyişib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ötən dövr ərzində Kəngərli rayonunda görülmüş işləri yüksək dəyərləndirmişdir. 2012-ci ildə Kəngərli Rayon Mədəniyyət Evinin açılış mərasimində iştirak edən dövlət başçısı demişdir: ***"Biz iki il əvvəl də sizinlə görüşmüşük. İki il əvvəl ulu öndərin abidəsinin açılışında bərabər idik. Mən çox şadam ki, bu iki il ərzində Kəngərli rayonunda böyük işlər görülmüşdür. Burada doğrudan da, gözəl mərkəz yaradılmış, yeni inzibati binalar tikilmişdir, indi fərdi evlər də tikilməkdədir... Bu gün gözəl mədəniyyət evinin açılışında toplaşmışıq. Bir neçə il əvvəl Naxçıvanda Heydər Əliyev adına möhtəşəm Mədəniyyət Mərkəzinin açılışında iştirak etmişdik. İndi isə Kəngərli rayonunda mədəniyyət evinin açılışında iştirak edirik. Bu, böyük rəmzi məna daşıyır. Çünki bir neçə il əvvəl Kəngərli rayonu inzibati ərazi kimi mövcud deyildi. Bir neçə il bundan əvvəl Vasif Talıbov belə təşəbbüslə çıxış etmişdi. Mən bu təşəbbüsü təkcə kağız üzərində deyil, əməldə dəstəklədim və qısa müddətdə rayon yaradıldı".***

Kəngərli rayonunun adı muxtar respublikanın quruculuq salnaməsinə bütün yaşayış məntəqələri yenidən qurulan və abadlaşdırılan ilk rayon kimi düşüb. Rayon mərkəzindən kənd yaşayış məntəqələrinə uzanan bütün avtomobil yolları yenidən qurulub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının Culfa və Kəngərli rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2011-ci il 2 sentyabr tarixli Sərəncamına uyğun olaraq yenidən qurulan yol, yaşayış məntəqələri arasında daha tez, asan və təhlükəsiz nəqliyyat əlaqəsinin yaradılmasına öz töhfəsini verib. Uzunluğu 39 kilometr olan və 5 kənd yaşayış məntəqəsini birləşdirən Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qarabağlar-Yurdçu-Qıvraq (Xıncab da əlavə yolla birləşməklə) dairəvi avtomobil yolu adıçəkilən kəndlərə gediş-gəlişi xeyli asanlaşdırıb.



Muxtar respublikanın davamlı sosial-iqtisadi tərəqqisi Kəngərli rayonunun da dinamik inkişafını təmin edib. Ötən dövrdə rayonda görülmüş işlərin miqyası o qədər böyükdür ki, bütün bunları bir yazıya sığışdırmaq mümkün deyil. Amma ümumi olaraq qeyd edək ki, ötən 15 il ərzində Kəngərli rayonunun bütün kəndləri və Qıvraq qəsəbəsi kompleks abadlaşdırılıb, inzibati binalar tikilib, 79,9 kilometr yeni yol salınıb, 6 körpü qurulub, tarixi abidələrimizə, eləcə də dünya əhəmiyyətli memarlıq nümunəsi olan Qarabağlar Türbə Kompleksinə ikinci həyat verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Şahtaxtı hamamında kompleks bərpa işlərinə başlanılıb. Kəngərli rayonu yaranandan 5382 şagird yerlik 12 məktəb, 224 yerlik uşaq bağçası tikilib, Mədəniyyət Sarayı, 2 muzey, Şahmat məktəbi, 11 tibb müəssisəsi, 2 uşaq musiqi məktəbi, 10 kənd və 10 xidmət mərkəzi istifadəyə verilib. Ümumilikdə, bəhs olunan dövrdə rayonda sənaye məhsulu 16, kənd təsərrüfatı məhsulu 7, investisiya qoyuluşu 50, rabitə xidmətlərinin həcmi 7 dəfə, əkin sahələri isə 54 faiz artıb.

Rayonun davamlı sosial-iqtisadi inkişafı, o cümlədən tikinti-quruculuq tədbirləri cari ildə də davam etdirilib. Belə ki, bu il fevralın 22-də Kəngərli rayonunun Qabıllı kəndində yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib. Kənd təsərrüfatı üçün yararsız ərazidə qurulan 2 meqavat gücündəki yeni Günəş Elektrik Stansiyası il ərzində 3 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcək. Bununla da Naxçıvan Muxtar Respublikasında Günəş Elektrik stansiyalarının qoyuluş gücü 24 meqavata, illik istehsal gücü isə 36 milyon kilovat-saata çatdırılıb.

2019-cu il martın 7-də isə Qıvraq qəsəbəsində zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət 48 mənzilli yeni yaşayış binası istifadəyə verilib. 24-ü üçotaqlı, 24-ü isə ikiotaqlı olan binada Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi zamanı sağlamlığını itirmiş şəxslərə mənzillər hədiyyə olunub.

Mayın 7-də isə Kəngərli rayonunun Yurdçu kəndində yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilib. Bu suvarma şəbəkəsi 60 hektara yaxın ərazini əhatə edir ki, bunun da 56 hektara yaxını pay, 2 hektardan çoxu həyətyanı, 3 hektara yaxını isə yaşıllıqların altında olan torpaqlardır. Qeyd edək ki, bir neçə il bundan əvvəl "Kəngərli rayonunda irriqasiya sistemlərinin təkmilləşdirilməsi" layihəsinə əsasən həyata keçirilən meliorasiya tədbirləri çərçivəsində bu gün artıq rayonda 2 min hektara yaxın ərazi yeraltı şəbəkə ilə əhatə olunub. Nəticədə, aqrar sahənin inkişafı üçün geniş imkanlar açılıb.

Hazırda isə Qıvraq qəsəbəsində "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin rayon filialı üçün yeni bina tikilir. İki mərtəbədən ibarət olacaq bank filialı əhalinin, o cümlədən sahibkarların, torpaq mülkiyyətçilərinin maliyyə resurslarına olan tələbatlarının yüksək səviyyədə ödənilməsinə şərait yaradacaq.

Rayon mərkəzindəki hərbi hissədə zabit-gizir ailələri üçün yeni inşa olunmuş yaşayış binası isə hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına öz töhfəsini verəcəkdir. Qeyd edək ki, 5 mərtəbədən ibarət olan binanın inşasına 2018-ci ildən başlanılıb. 44 mənzilli, tikintisi, demək olar ki, tamamlanan binanın ətrafında abadlıq işləri aparılıb, əraziyə yeni işıqlandırma sistemi və su xətti çəkilib, yaşıllıq və gülkarlıqlar salınıb.

Bundan əlavə, Qıvraq qəsəbəsində həyata keçirilən abadlıq-quruculuq tədbirlərindən biri də burada yeni istirahət parkının salınmasıdır. Qəsəbəyə məxsusi gözəllik verən bu istirahət parkı 1,6 hektar ərazini əhatə edir. Ötən dövrdə burada böyük abadlıq işləri aparılaraq sakinlərin istirahəti üçün lazımi şərait yaradılıb. Gözəlliyi ilə göz oxşayan parkda dekorativ ağaclar və gül kolları əkilib, fəvvarə qurulub, müasir işıqlandırma sistemi yaradılıb. Artıq istifadəyə verilmə ərəfəsində olan bu yeni quruculuq obyektləri Qıvraq qəsəbəsinin simasını daha da gözəlləşdirəcək.

*Göründüyü kimi, Kəngərli rayonu qısa müddətdə böyük bir inkişaf yolu keçib. Bölgədə inkişaf və yüksəliş davamlı xarakter alıb. Rayon sakinlərinin əhval-ruhiyyəsi də yaradılan şərait hesabına daha da yüksəlib, insanların sabaha olan inamı artıb. Bu inamın kökündə isə Heydər Əliyev ideyalarının layiqincə davam etdirilməsini görməmək mümkün deyil. Ulu öndərin məhv olmaq təhlükəsindən xilas etdiyi müstəqilliyimizin bəhrəsi kimi həyata vəsiqə qazanan Kəngərli rayonu bu gün həm də hərtərəfli inkişaf edən Naxçıvanın bir bölgənin simasında təntənəsidir.*

**Səbuhi HƏSƏNOV**

## Ukraynanın "Kanal-5" televiziyasında Naxçıvanla bağlı növbəti veriliş yayımlanıb



Ukraynanın "Kanal-5" televiziyası Naxçıvanla bağlı çəkilmiş verilişin ikinci hissəsini də efirdə yayımlayıb. Ukrayna dilində təqdim edilən videomaterialda Naxçıvan şəhərinin yaxınlığından keçən Araz çayı, qədim diyardakı tarixi abidələr, mədəniyyət və səhiyyə müəssisələri, həmçinin muxtar respublikanın iqtisadi potensialı barədə ətraflı məlumat verilib.

Qeyd edilib ki, Duzdağ Fizioterapiya Mərkəzində təkcə yerli sakinlər deyil, həmçinin əcnəbi ölkələrdən gələn insanlar da müalicə olunurlar. Burada yaradılan infrastruktur haqqında ukraynalı tamaşaçılar geniş informasiya əldə ediblər. Aparıcı Qarabağlar türbəsinin memarlıq üslubu, burada saxlanılan əşyalar haqqında ətraflı məlumat verib, xalqımızın zəngin mədəni irsindən söhbət açıb.

Verilişdə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində 5 minillik şəhərsalma mədəniyyəti, Naxçıvanın tarixi haqqında tarixçi-alim Vəli Baxşəliyevlə müsahibə təqdim edilib. Naxçıvan Biznes Mərkəzində isə muxtar respublikada istehsal edilən keyfiyyətli, ekoloji cəhətdən təmiz məhsullar, sənaye və kənd təsərrüfatı sahəsində qazanılan uğurlar diqqətə çatdırılıb.

Aparıcı Nadya Bazivin müğənni Vəli Səfərovla birlikdə ifa etdikləri "Naxçıvan" mahnısı da televiziya tamaşaçılarına təqdim olunub. Sonda isə verilişin aparıcısının Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində qonaq olduğu "Gün aydın" verilişindən bir hissə təqdim edilib. Müəllif televiziyanın texniki imkanları və əməkdaşların peşəkarlığını xüsusi olaraq vurğulayıb.

***"Nuhçıxan" İnformasiya Agentliyi***

## Kikboksinq üzrə açıq turnirə yekun vurulub





*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda yeniyetmələr və kadetlər arasında kikboksinq üzrə Naxçıvan Muxtar Respublika açıq turniri keçirilib.*

Turnirdən öncə Naxçıvan Muxtar Respublika Stadionunda məşqçi-müəllimlər və hakimlər üçün seminar təşkil olunub. Seminarda çıxış edən yeniyetmələrdən ibarət milli komandanın baş məşqçisi, Əməkdar məşqçi, WAKO beynəlxalq dərəcəli hakim Elnur Alıyev yeni qaydalar haqqında məlumat verib və iştirakçıları maraqlandıran sualları cavablandırıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Kikboksinq Federasiyasının birgə təşkil etdiyi turnirdə Bakı şəhəri, "Neftçi", "Teyd", "Qarabağ", "Zirvə", "Alliqator", "Ağsu", "Ağcabədi" və Naxçıvan Muxtar Respublikasının komandaları ilə yanaşı, İran İslam Respublikasının və Rusiya Federasiyasının komandaları da mübarizə aparıb.

Turnirdə 100-ə yaxın idmançı rinqə çıxıb.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra turnir bədii hissə ilə davam edib. Naxçıvan Dövlət Filarmoniyasının musiqi və rəqs ansamblının bir-birindən rəngarəng ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Sonra Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində final görüşlərinə start verilib.

Əvvəlcə rinqə kadetlər (10-13 yaşlılar) çıxıb. Şahin Əfəndiyev (26 kiloqram), Ramal Qəribli (28 kiloqram), Sübhan Məmmədov (32 kiloqram), Kənan Cəfərov (37 kiloqram), Vüqar Məmmədov (42 kiloqram), Əsgər Musayev (47 kiloqram) və Zeynalabdin Musayev (+47 kiloqram) öz çəki dərəcələrində bütün rəqiblərini üstələməyi bacarıblar.

13-15 yaşlı yeniyetmələrin mübarizəsində isə Azər Zamanlı (39 kiloqram), Nicat Abbasov (42 kiloqram), İsmayıl Yaqubov (47 kiloqram), Əli Qasımov (52 kiloqram), Fərid Məhərrəmov (57 kiloqram), Ərşia Əhmədyan (63 kiloqram, İran), Nəriman Nərimanov (69 kiloqram) və Şakir Həmzəyev (+69 kiloqram) hamıdan güclü olublar.

15-17 yaşlı yeniyetmələr arasındakı görüşlər isə daha maraqlı idman mübarizəsi şəraitində keçib. Bu yaş qrupunda Mehran Salehyan (57 kiloqram, İran), Kian Rzazadə (60 kiloqram, İran), Aqşin Hacızadə (71 kiloqram), Qədir Məmmədrza (75 kiloqram, İran) və Rza Rəhimpur (91 kiloqram, İran) turnirin qalibi adını qazanıblar.

Qızların mübarizəsində isə Xədicə Mustafayeva (32 kiloqram) rinqdə bütün rəqiblərinə qalib gəlməyi bacarıb.

Komanda hesabında isə bütün çəkilərdə uğurlu nəticə göstərən "Neftçi" komandası "Heydər Əliyev kuboku" turnirinin qalibi olub və kubokla mükafatlandırılıb.

Elnur Alıyev, Könül İsmayılova və Təbriz İmanov isə Naxçıvanda kikboksinqin inkişafına göstərdikləri dəstəyə görə muxtar respublikanın Gənclər və İdman Nazirliyi tərəfindən xüsusi mükafatla təltif olunublar.

*Rumıniyanın Mamaia şəhərində şahmat üzrə məktəblilər arasında Avropa çempionatı keçirilib.*

## Şahmatçımız Avropa çempionatında bürünc medal qazanıb



31 may-8 iyun tarixləri arasında keçirilən qitə birinciliyində 20 ölkənin 450-yə yaxın zəka sahibi iştirak edib. Avropa çempionatının reqlamentinə əsasən oğlan və qız şahmatçılar ayrılıqda 7, 9, 11, 13, 15 və 17 yaş qrupları üzrə birincilik uğrunda mübarizə aparıblar.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının 4 zəka sahibi də qitə birinciliyi uğrunda ağ-qara taxtada öz güclərini sınayıb.

Oğlanların 9 yaş qrupunda şahmatçımız Əli Məmmədli 50 zəka sahibi arasında 9 mümkün xaldan 5,5-ni toplayıb və qitə birinciliyini 13-cü pillədə başa vurub.

11 yaşlı oğlanların iştirak etdiyi qrupun qalibi olan ukraynalı İqor Samunenkovdan 2 xal az toplayan İlkin Qəbulov (5,5 xal) çempionatı 15-ci pillədə başa vurub.

15 yaşlı qızların iştirak etdiyi qrupda muxtar respublikanı Nəsrin Babayeva təmsil edib. Şahmatçımız 4 xal toplayaraq qitə birinciliyini 14-cü yerdə tamamlayıb.

Birincilikdə ən uğurlu nəticəyə isə 17 yaşlı FİDE ustamız Sadiq Məmmədov (2205) imza atıb. Belə ki, bu yaş qrupunda keçirdiyi 9 görüşdən 6,5 xal toplayan zəka sahibimiz Avropa çempionatında üçüncü olub. Sadiq Məmmədov çempionatı lider kimi başa vuran moldovalı FİDE ustası İvan Şitkodan (2437) yalnız bir xal geri qalıb. 6,5 xal toplayan və turnir cədvəlini ikinci pillədə başa vuran rumıniyalı FİDE ustası Georgi Stoleru (2372) isə yalnız əmsalına görə zəka sahibimizi qabaqlayıb.

Sonda şahmatçımıza təşkilatçılar tərəfindən diplom, medal və kubok təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

*Yurdumuzun nemətləri*

## Naxçıvan bağlarının ilk yetişən ərik növü – *növrəstə*

***Diyarımız müxtəlif meyvə çeşidləri ilə zəngindir. Həmin meyvələr içərisində ərik xüsusi yer tutur. Bu meyvə sortlarının əksəriyyətinin (alça-ərik, ağ növrəstə, qırmızı növrəstə, haqverdi əriyi, ağcanabat, ağ təbərzə və ya balyarım, toxum şəmsi, qara və sarı təbərzə, əbutalıbi, xosrov şahi) vətəni məhz Naxçıvandır. Min illər boyu Naxçıvan əhalisinin öz məişətində, ailə təsərrüfatının təşkilində ərikçilik müstəsna yer tutub. İstər ailənin meyvə ilə təminatında, istərsə də əmtəəlik məhsul istehsalında ərikdən yaş (təzə), qurudulmuş, qax (dənəsi çıxarılmış) formada istifadə edilib.***



Naxçıvan ərazisində əriyin üç min il əvvəl becərilməsi tarixi qaynaqlarda öz əksini tapıb. Bu diyarın qədim ərik sortları tarixən qonşu ölkələrə ixrac olunub. Ata-babalarımız isə ərik bağlarını salarkən hansı sortlardan istifadə edilməsinə və nə qədər əkilməsinə, yerin iqlim şəraitinə, ən əsası isə bu meyvənin satışının təşkilinə ciddi riayət ediblər. Təbii ki, bugünkü dövrlə müqayisədə həmin məhsulun mövsümündə alıcısı çox az idi. O zaman, əsasən, Naxçıvan və Ordubad şəhərlərində yaşayan əhalinin həyatyanı sahələrində bol ərik məhsulu yetişdirildiyi üçün bazarda ona tələbat aşağı idi. Əsas bazar İrəvan və Sisian hesab edilsə də, o zaman məhsulu bu bölgələrə çatdırmaq çox çətin idi. Ona görə də əhali, əsasən, qurutmaq üçün yararlı olan haqverdi, ağcanabat, ağ təbərzə (balyarım), əbutalıbi, badamı ərik, ağ ərik sortlarına üstünlük verirdilər. Naxçıvanın hər bir ərazisində ərik becərilsə də, Ordubad bölgəsinin bağlarında ərik daha çox olur, onun meyvəsinin qurudulması, saxlanılma qaydası nəsildən-nəslə ötürülürdü. XX əsrin əvvəllərində tanınmış Azərbaycanşünas alim Məhəmmədhəsən Baharlı qeyd edirdi ki, Naxçıvan əriyi dadına, zərifliyinə, iyinə və böyüklüyünə görə məşhurdur.

Əlbəttə, hər zamanın öz hökmü, öz tələbi var. İstehsalçı çevik hərəkət etməli, işini zamanın tələblərinə uyğun qurmalıdır. Bu gün Naxçıvanda əhalinin sayının artması, məskunlaşma bazarda təzə meyvəyə olan tələbatı da artırır. Ona görə də bağlarda tezyetişən ərik sortlarının sayını artıran təsərrüfat sahibləri əhalini təzə meyvə ilə təmin etməklə yanaşı, ailə təsərrüfatlarını da inkişaf etdirir, gəlirlərini artırırlar. Naxçıvanda ən tezyetişən ərik növü isə el arasında "mayovka" da adlandırılan növrəstə əriyidir.

Naxçıvanın qədim ərik sortu olan növrəstənin (mənası "yeni yetişmiş", "təzə", "nübar" deməkdir) iki növü vardır. Ağ növrəstə əsl Ordubad sortudur, meyvəsi xırdadır. Qabığı qalın, tüklü, ağ-sarımtıl, bir tərəfi çəhrayı yanaqlıdır. Çəyirdəyi orta böyüklükdə olub, şirindir. May ayının axırı ("mayovka" sözü buradan yaranıb), iyunun əvvəllərində yetişir. Yetişdikdən sonra bir neçə gün ərzində yeyilməlidir. Qurutmaq üçün yaramır. Həm ağ, həm də qırmızı növrəstə daşınan zaman tez əzilir, ona görə də meyvələr tam yetişməmiş toplanır.

Qırmızı növrəstə Naxçıvanın qədim və məşhur sortlarındandır. Ağacın çətiri girdədir, sıxyarpaqlıdır. Meyvəsi yumrudur, baş hissəsi batıqdır, uzundur. Qabığı sarı, tüklü, narıncı rəngdədir. Bir üzü qırmızıdır, dənəsi şirindir.

Toxum şəmsi növrəstədən az sonra yetişən, daha çox Ordubad rayonunda becərilən ərik sortudur. Bu sort da iki yerə ayrılır: qırmızıtoxum şəmsi və ağtoxum şəmsi. Hər ikisinin meyvələri yumurta şəklindədir. Baş hissəsi bir qədər şişdir. Ağtoxum şəmsinin qabığı tüklü, qalın və azacıq sarı olur. Üzərində incə, qara xalları vardır. Ləti ağ, olduqca şirəlidir. Çəyirdəyi lətindən asanlıqla ayrılır. Dənəsi şirindir. Qırmızıtoxum şəmsinin bundan fərqi qırmızıyanaqlı olmasıdır. Hər ikisi iyunun əvvəllərində yetişir. Yetişdikdən sonra növrəstə sortundan fərqli olaraq ağacın üstündə uzun müddət qalır, daşınma və qurutma üçün əlverişlidir.

Bu gün Naxçıvanın bazardükanlarında növrəstə əriyini asanlıqla tapmaq olar. Amma bir məqamı xüsusilə vurğulamaq lazımdır ki, alıcılar növrəstəni bəzən xaricdən gətirilən başqa ərik növləri ilə qarışdırırlar. Təcrübəli insanlar ilk yetişən və nübar meyvə olan yerli növrəstə əriyini asanlıqla tanıyırlar. Bir də bazarda "mayovka çıxdı, göycə alıcısı azaldı, toxum şəmsi çıxdı, göycə satışı dayandı", – deyirlər.

Növrəstə ərik geniş sahələrdə – Ordubadın Dəstə və Şərurun Arazsahili kəndlərində becərilir. Çünki bu ərazilərdə məhsul digər yerlərə nisbətən 10-15 gün, bəzən bir ay tez yetişir. Buna baxmayaraq, digər yaşayış yerlərində də həyətlərdə heç olmasa bir ağac növrəstə ərik əkilir ki, necə deyərlər, "uşağın gözü özündə olsun", yəni meyvəni nübar vaxtı öz həyətindən yığıb doyunca yeyə bilsin.

**Zaleh NOVRUZOV**

## İməciliklərdə yaşıllıqlara aqrotexniki qulluq göstərilib



*Muxtar respublikada yaşıllıq sahələrinin artırılması istiqamətində tədbirlər cari ildə də mütəşəkkilliklə davam etdirilir. İyun ayının 8-də keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunmuşdu.*

Həmin gün Naxçıvan şəhərinin sakinləri tərəfindən Əshabi-Kəhf ziyarətgahına gedən yolun kənarlarında və şəhər qəbiristanlığında yaşıllıqlara aqrotexniki qulluq göstərilib və təmir işləri görülüb.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunun Püsyan kəndindəki yaşıllıq ərazilərində ağacların qurumuş budaqları budanıb, ağartma işləri görülüb, Yuxarı Daşarx kəndində 25 kiloqram müxtəlif sort meyvə dənələri əkilib, park və xiyabanlarda qadınların iştirakı ilə gül kolları alaq otlarından təmizlənib.

İməcilik günü Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilib. Naxçıvan-Şahbuz magistral yolunun kənarlarında ağacların dibləri alaq otlarından təmizlənərək suvarılıb, ağartma və budama işləri görülüb.

Bağlar diyarı Ordubad rayonunda da həmin tədbirlər həyata keçirilib.

Culfa rayonundakı iməcilik ərazilərində, əsasən, yol kənarlarındakı yaşıllıqlarda ağacların dibləri alaq otlarından təmizlənərək suvarılıb, ağartma işləri görülüb.

Kəngərli rayonunda Naxçıvan-Sədərək magistral yolunun sağ və sol hissələrində, həmçinin Qabıllı kəndindəki meyvə bağında, Sədərək rayonunun sakinləri isə həmin magistral yolun kənarlarında yaşıllıqlara aqrotexniki qulluq göstəriblər.

Şahbuzlular şəhər ərazisindəki 5 hektarlıq meyvə bağında və 3 hektarlıq tingçilik sahəsində yaşıllıqlara aqrotexniki qulluq göstərib, Naxçıvan-Şahbuz-Batabat magistral yolunun kənarlarında ağacların diblərini alaq otlarından təmizləyiblər.

Həmin gün muxtar respublikanın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik və abadlıq işləri aparılıb.

İməciliklərdə, ümumilikdə, 21 min 590 nəfər iştirak edib.

**Xəbərlər şöbəsi**

## Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti müddətdən artıq həqiqi hərbi xidmət keçmək arzusunda olan vətəndaşların həqiqi hərbi xidmətə qəbulunu elan edir

Namizədlər aşağıdakı tələblərə cavab verməlidirlər:

- *Müddətli həqiqi hərbi xidmət keçmiş olmalı;*
- *27 yaşı keçməməli;*
- *Fiziki cəhətdən möhkəm, hazırlıqlı və sağlam olmalı;*
- *Azərbaycan Respublikasının istənilən bölgəsində xidmət etməyə hazır olmalıdırlar.*

Xidmətə qəbul olmaq istəyən kişi namizədlər Bakı şəhəri, Səbail rayonu, Zərifə Əliyeva küçəsi 30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti aparatının qəbul bürosuna müraciət edə, əlavə məlumat almaq üçün (012) 493-62-47 nömrəsi ilə əlaqə saxlaya bilərlər.

### İtmişdir

Naxçıvan şəhəri, İlqar Ələkbərov küçəsi, 5A ünvanında yaşayan Rzayev Vəli Rza oğlunun adına olan 4457 inventar nömrəli texniki pasport və 07/386 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 394